Səh. 2 Tarixin təkrar olması – Azər Musaoğlu

Səh. 3 Süni intellekt və mənəviyyat – Hacı Bəkiroğlu

Səh. 5 Zəfərə gedən yolun kor işıqları – Esmira Ələkbərli

Səh. 6 Bala Muğanlının böyük oğlu – Mirzə Məmmədoğlu

Səh. 2 Günah özümüzdədir – Cəlal Yadigarlı

Səh. 4 QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRİN TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRİ ÜÇÜN NOYABRDA KEÇİRİLƏCƏK İMTAHANLARA QEYDİYYAT OKTYABRIN 8-NƏ KİMİ DAVAM EDƏCƏK

Səh. 7 Cavab atəşi və ya tənqid içində tənqid – Ciyalə Osmanova



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR
2025-Cİ İL
№ 17 (234)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## MSK: YERLİ SEÇKİLƏRDƏ 3,5 MİLYON SEÇİCİ İŞTİRAK EDƏCƏK




Gürcüstanda keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı seçici siyahısı yekunlaşıb. Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat katibi Natia İoselianinin sözlərinə görə, oktyabrın 4-də baş tutacaq seçkilərdə seçicilərin ümumi sayı 3 milyon 513 min 818 nəfər təşkil edir.

Onlardan 3 milyon 130 min 348 nəfəri elektron texnologiyalar vasitəsilə səs verəcək. İlk dəfə olaraq 47 minə yaxın gənc də seçkilərdə iştirak etmək hüququ qazanıb.

MSK-nın açıqlamasına görə, ölkə üzrə 3061 seçki məntəqəsi fəaliyyət göstərəcək. Bunlardan 2284-ü elektron, 777-si isə ənənəvi qaydada işləyəcək. Penitensiar müəssisələrdə isə 10 xüsusi seçki məntəqəsi yaradılıb.

Bu il 60 min 754 seçici daşınan seçki qutusu ilə səsvermə üçün müraciət edib. Seçkilərə hazırlıq müddətində vətəndaşlar vahid seçici siyahısında məlumatlarını MSK-nın internet saytı, mobil tətbiq və ödəmə terminalları vasitəsilə yoxlaya biliblər.

MSK rəsmisi bildirib ki, vahid seçici siyahısı artıq yenilənərək qurumun rəsmi internet saytında ictimaiyyətin ixtiyarına verilib. Siyahının açıq variantı həm seçki məntəqələrində, həm də qeydiyyatdan keçmiş partiyalar və müşahidəçi təşkilatlar üçün əlçatandır.

Qurumun açıqlamasına görə, seçkilərdə iştirak etmək üçün 12 siyasi partiya və partiya siyahısı qeydə alınıb.

MSK-dan, həmçinin bildirib ki, Tbilisidə 9 merliyə namizəd qeydə alınıb. Ümumilikdə isə ölkənin digər bölgələrində 63 bələdiyyədə 112 bələdiyyə sədri (mer) namizədi qeydə alınıb. Bundan əlavə, təşəbbüs qrupları tərəfindən 32 majoritar namizəd təqdim olunub.

Komissiyanın məlumatına əsasən, seçki prosesini daha şəffaf və əlçatan etmək üçün namizədlərin qeydə alınması prosedurları sadələşdirilib.

Qeyd edək ki, seçkilər Sakrebulo (bələdiyyə şuraları), şəhər və icma merləri, həmçinin majoritar namizədlər üzrə keçiriləcək.

## SUXUMİNİN SÜQUTUNDAN 32 İL ÖTÜR



Sentyabrın 27-i Suxumi şəhərinin süqutunun 32-ci ildönümüdür. Bununla əlaqədar olaraq Gürcüstan ərazisində bütün inzibati binaların üzərində dövlət bayraqları yarıya qədər endirilib. Bununla həmçinin Abxaziya müharibəsində həlak olanların xatirəsinə ehtiram nümayiş etdirilib.

Qeyd edək ki, Abxaziyada hərbi qarşıdurma 1993-cü il avqustun 14-də başlayıb. 1994-cü il sentyabrın 27-dək davam edən münaqişə nəticəsində Gürcüstan Abxaziya üzərində yurisdiksiyasını itirib. Beynəlxalq ictimaiyyət bu faktı Rusiya tərəfindən işğal kimi tanıyıb.

Təsdiqlənməmiş məlumatlara əsasən, Abxaziya müharibəsində Gürcüstan tərəfindən 10 mindən çox hərbçi və dinc sakin həlak olub. 250 mindən çox gürcü Abxaziyadan didərgin düşüb. Abxaziya tərəfi isə 3500 nəfərin öldürüldüyünü, 2000-ə yaxın abxazın isə yaralandığını iddia edir.

## TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze Tbilisidə səfərdə olan Türkiyənin daxili işlər naziri Ali Yerlikaya ilə görüşüb.

Sentyabrın 25-də baş tutan görüşdə ölkələr arasında dostluq və strateji tərəfdaşlıq məsələləri diqqət mərkəzində olub. İki ölkənin Daxili İşlər nazirlikləri arasında tərəfdaşlığın səmərəliliyi qeyd edilib.

Görüşdə dünyada və regionda baş verən proseslər, Gürcüstan və Türkiyənin sabitliyin və sülhün təşviqindəki rolu müzakirə olunub.

İ.Kobaxidze türkiyəli nazirə Gürcüstana səfərinə görə təşəkkür edib və belə yüksəksəviyyəli səfərlərin ölkələr arasında strateji tərəfdaşlığın daha da inkişafına töhfə verdiyini vurğulayıb.

Ali Yerlikaya həmçinin Gürcüstanın daxili işlər naziri Geka Geladze ilə görüşüb.

Görüşdə Gürcüstan və Türkiyənin hüquq-mühafizə orqanları arasında səmərəli əməkdaşlıq məsələləri müzakirə edilib. Müxtəlif istiqamətlərdə mövcud sıx tərəfdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi vurğulanıb.

Geka Geladze qeyd edib ki, Gürcüstan tərəfi mövcud əməkdaşlıq mexanizmlərinin daha da çevik və effektiv olması üçün türk həmkarları ilə fəal şəkildə işi davam etdirməyə hazırdır.

Tərəflər, həmçinin qurumlar arasında təcrübə və qabaqcıl təcrübələrin mübadiləsi üçün müvafiq tədbirlərin həyata keçirilməsinə hazır olduqlarını bildiriblər.

Görüşün sonunda Geka Geladze türkiyəli həmkarına polisin səmərəli əməkdaşlığına görə təşəkkür edib.



# TARİXİN TƏKRAR OLMASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Tarix təkrar olur. Tarix həm də yaxşı, pozitiv hadisələrlə təkrar olsa da, bu ifadə çox vaxt pis, neqativ hadisələrin təkrarı zamanı yada düşür, işlədilir – qınaq kimi. Tarixin pis təkrarının başa qaxılması daha çox baş yiyələrinin – başbilənlərin qarınlarını düşündükləri – qarınları ilə düşündükləri zamanlarda baş verir. Axı bizdə başbilənsiz iş aşmaz. Qarınqulu isə yeməkdə qoçaq olar, köməkdə naçaq.

Bəli, tarix təkrar olur. Təkrar biliyin anasıdır. Biz nə təkrarlardan dərs çıxarırıq, nə təkrarlarla biliyimizi artırırıq. Axı "tarixdə baş verənlərdən dərs götürmək tarix dərslərindən daha önəmlidir" (Oldos Haksli). Bizdə təkrar biliyin anasını ağlar qoyur. Bizim biliyimiz yetimdir. Eyni hadisəni, eyni səhvi, eyni faciəni, eyni axmaqlığı o qədər təkrar-təkrar yaşayırıq ki, bizdə bu hadisələrə, səhvlərə, faciələrə, axmaqlıqlara qarşı immunitet yaranır. Səhvlərimizi düəltmək əvəzinə tarixə imkan veririk ki, səhvlərimizi təkrar üzümüzə vursun, başımıza çırpsın. Və bizim bu üzüqara tarix təkrarlana-təkrarlana nəsildən-nəslə ötürülür, gələcək nəsillərin başında çatlayır, üzündə şillə olur.

Təkrar biliyin anası olsa da bilik bizimçün ən sonda yer alır. Yaddaşımız elə təkrardan-təkrara təzələnir. Çünki bizi bu latergiya vəziyyətindən silkələyib ayıldacaq başıuca başbilənlərimiz yoxdur, acgöz, qarnıtox başbilənlik edənlərimiz var. Tarixin təkrar olması başımıza təyin olunmuş bu qondarma başbilənlərin heç eyninə də deyil. Onları yalnız daha çox var-dövlət yığmaq, vəzifədə daha çox qalmaq düşündürür. Onlarçün tarix yalnız vəzifəyə təyin olunmaqla, saxta yolla "seçilməklə", doğum günü qeyd etməklə, toy günü təyin etməklə, istirahətə çıxmaqla, bayramlar qeyd etməklə, əməkhaqqı almaqla bağlı ili, ayı, günü bildirən təqvim rəqəmlərindən ibarətdir.

Təkrarı biliyin anası etməyənləri, tarixdən dərs çıxarmayanları isə tarix cəzalandırır: partiyadan-partiyaya əqidə dəyişən savadsız, yalnız öz mənafeyini düşünənləri karusel kimi yenidən onlara başbilən, başçı təyin edir. Tarix hər şeyə boyun əyən, qul kimi itaət edən, sorğu-sualsız tabe olan mütiləri sevmir. "Ağa deyir, sür dərəyə, sür dərəyə" ifadəsini tarix boyu müti kölələr təkrar ediblər. Və o ağalar bu kor kölələri minib köndələn çapıblar həmişə.

Tarix alimlərinə, yazıçılarına, sənətkarlarına, qəhrəmanlarına dəyər verməyənlərə dəyər vermir. Tarix seçkilərin saxtalaşdırılmasında iştirak edənləri elə onların öz əlləri ilə taxta mindirdikləri ("başlarına mindirdikləri") hökmdarların, ağaların, tiranların qapazı, şilləsi ilə cəzalandırır və bu üzüqara tarixdən dərs çıxarmayana qədər, səhvləri düzəltməyənə qədər, tövbə edib haqqın, ədalətin, doğrunun, işığın yanına keçməyənə qədər tarix təkrarlanmaqla bu cəzanı uzadır.

Tarixi həm də gələcək haqqında elm adlandırıblar. Tarixini, keçmişini bilməyənlər gələcəklərini qura bilmirlər, həmişə eyni səhvləri edirlər, eyni bataqlıqda çabalayırlar. Bu, həmişə belə olub, olacaq da. Çünki "tarixini bilməyənlər onu təkrar yaşamağa məhkumdurlar" (Edmund Börk). Babaların etdiyi səhvləri atalar edib, ataların etdiyi səhvləri oğullar təkrarlayıb və tarix öyrənilməyənə qədər, səhvlər düzəldilməyənə qədər, təkrar biliyin anası olmayana qədər, milli kimlik yerlibazlıqdan, tayfabazlıqdan üstün olmayana qədər, birlik partiyalara bölünməkdən üstün olmayana qədər, alimlərimizə, yazıçılarımıza, sənətkarlarımıza, qəhrəmanlarımıza içinin otu-suyu olmayan pullularımızdan, vəzifəlilərimizdən çox hörmət qoyulmayana qədər tarix təkrar olacaq.

# GÜNAH ÖZÜMÜZDƏDİR



Son günlərdə üst-üstə baş verən milli mübahisələr, diskriminasiyalar bizi də məcbur etdi ki, bu çaxnaşmalar haqqında danışaq. Gürcüstan tarix boyu çox-millətli dövlət olub. Heç kim deyə bilməz ki, Borçalı türkmənləri gəlib burada havayı torpaq sahibi olublar. 1121-ci ildə Didqori müharibəsi qıpçaqların köməyi ilə qazanılıb. 1780-ci ildə Aspindza müharibəsi Xudu Borçalının və Borçalı silahlı birliklərinin köməyi ilə qazanılıb, 1795-ci ildə Uplisçixe, Qori kimi rayonları Xudu Borçalı Ağa Məhəmməd şah Qacarın ordularından qoruyub və dağıdılmasına icazə verməyib, 2-ci İraklinin Dağıstanlılarla mübarizəsində Borçalı-Qazax türkmənləri daim yanında olub, 1917-ci ildə ermənilər Cənubi Gürcüstana hücum edəndə Emin Ağa Acalov öz dəstəsi ilə onları geri çəkilməyə məcbur edib, Apxaziya konfliktində və 2008 müharibəsində borçalılar aktiv iştirak ediblər. Bu gün də könüllü olaraq, tərəddüdsüz Borçalı balaları hərbi xidmətə yollanırlar.

Gürcüstanın dövlətçiliyi, azadlığı, ərazi bütövlüyü üçün borçalıların etdiyi bu qədər fədakarlığın qarşılığı 16 yaşında gəncə "niyə gürcü dili bilmirsən" bəhanəsi altında şillə vurmaq olmamalıdır. Bu dövlətin bərqərar olması üçün can verən, qan verən Borçalı türkmənlərinə bu cür münasibət qeyri-insanidir və şovinizmdir. Əlbəttə ki, dövlət dilini hamımız bilməliyik, amma bilmir deyə bir insanı təhqir etmək, üzərinə silah çıxarmaq dövlətimizin adına ləkə gətirən hadisələrdir. Bu cür hadisələrə dövlət zəmin yaratmamalıdır. Dil bilməyən insanları günahlandırmazdan əvvəl gəlin məktəb yetərsizliklərindən, təhsilin, tədrisin çöküşündən danışaq.

Universitetlər 1 il gürcü dilində hazırlıq kursunu 2250 lari qarşılığında tədris edir. Maddi imkanı olmayan gənc dövlət dilini necə öyrənsin? Bu gün elə ailələr var ki, maddi ehtiyac ucbatından orta məktəbi bitirməmiş gənclər işləməyə məcbur qalırlar. Necə kimisə qınaya bilərik ki, dövlət dilini niyə bilmirsən? Yaxud niyə uğur qazananları, dövlət universitetlərində gürcülərdən belə daha yüksək nəticələr əldə edənləri, uğurlu həkimləri, müəllimləri, polisləri, vəkilləri görmürük, şirniyyat mağazasında işləyən bir gənci hədəf alırıq? 16 yaşında uşaq ehtiyac ucbatından haradasa işləyirsə onun ehtiyacı ilə maraqlanmalıyıq, dil bilməsi ilə deyil. Dövlətimizi də bu cür düşünməyə səsləyirik ki, milli zəmində yaranan bu mübahisələr onun adına ləkə gətirməsin.

İkinci tərəfdən isə günah bizim özümüzdədir. Çünkü biz cəmiyyət olmağı bacarmırıq, bir gəncimizi hansısa şovinistdən qorumağı bacarmırıq. Qıraqdan durub tamaşa etməyi və sosial şəbəkələrdə "yaxşı edib vurub, gürcü dilini bilməlidir" kimi mənasız rəylər bildirməyi bacarırıq. Küçələrdə dava salıb bir-birimizi qırmağı bacarırıq, amma 16 yaşlı bir gəncimizə şillə vurana heç nə edə bilmirik. Deməli, günahın böyük payı özümüzdədir.

İndi seçkilər gəlir, əksəriyyətimiz gözünü yumub hansı tərəf yaxşı pul versə o tərəfə yıxılacaq. Azad bir insanın azad bir mövqeyi olmalıdır. Şəxsiyyət tam rahat şəkildə iqtidarın tərəfində dura bilər və yaxud müxalifətçi ola bilər. Lakin hansı tərəfin pul verməsinə baxıb, səsini ona satırsa, mən o insana şəxsiyyət demirəm. Bütün bunlar bizim cəmiyyətimizin sağlam təfəkkürlü olmamasından yaranır. Biz sağlam baş ilə düşünüb mövqeyimizi seçə bilmirik. Hər seçkidə cəmiyyətimizin problemlərini dövlətin qarşısına qoymaq əvəzinə dövlətdən pul güdürük, özümüzü yazıqladaraq diqqət çəkməyə çalışırıq. Sağlam, fiziki iş qabiliyyəti olan kişilərimiz var ki, dövlətdən sosial yardım tələb edir. Dövləti heç nədə qınamaq olmaz. Hər vəziyyətə özümüz özümüzü salırıq. Dilinin, dininin, dövlətinin, cəmiyyətinin, kimliyinin qayğısını çəkən sağlam gənclərimiz olmadıqca, hələ çox şillələr yeyəcəyik. Əziz Borçalı camaatı, səsinizi pula sataraq şəxsiyyətinizi itirməyin. Hər birimizin azad seçim haqqı var, kim hansı tərəfi müsbət bilirsə ona səs versin və səsinin arxasında dursun.

Cəlal YADİGARLI
Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi

# YAXŞILIQ – YAXŞIDIR



Çox bəyəndiyim bir türk aktyor var – Ali Sürməli. Onun bir reportajında söylədiyi gözəl bir söz var, qısa, amma çox mənalı. Deyir ki: "Bir başdaşı üzərində belə bir söz oxudum: Yaxşılıq – yaxşıdır".

Yaxşılıq – qarşılıq gözləmədən edilən bir işdir. Yaxşı insan isə qarşılıq gözləmədən insanlara yaxşılıq edən insandır.

Lakin yaşadığımız zaman və cəmiyyət yaxşılıq və yaxşı insan anlayışının tərifini dəyişməyə məcbur edir. Bu səbəbdən demək olar ki, yaxşılıq – insanlara, heyvanlara və bütün bəşəriyyətə zərər verməməkdir. Yaxşı insan isə – məxluqata zərər verməyən insandır.

Deyə bilərsiniz ki, birinci təriflə ikinci tərif arasında nə fərq var?

Birincisi – insanlara fayda verən bir işi görməkdir.

İkincisi isə – əgər insanlara fayda verə bilmirsənsə, heç olmasa fayda verənlərə mane olmayıb, insanların zərər çəkməsinə səbəb olmamaqdır.

Allah-təala Qurani-Kərimdə belə buyurur: "Ata-anaya, qohumlara, yetimlərə, kasıblara, yaxın qonşuya, uzaq qonşuya, yanınızdakı yoldaşa, yolçuya və sahib olduqlarınıza yaxşılıq edin. Allah lovğalanan və özünü bəyənənləri sevməz" (Nisa, 4/36).

Yaxşılıq sadəcə Qurani-Kərimdə əmr edilmir. "Yaxşılıq etməkdən usanmayın", "Yetimə və dul qadına zülm etməyin" kimi ayələrlə İncil və Tövrat kimi ilahi kitablarda da əmr edilməkdədir.

Deməli, bütün səmavi dinlərdə insan yaxşılığa təşviq olunur, zülmdən çəkindirilir.

Buna baxmayaraq, bəzən insanlar ilahi xəbərdarlığa gözünü yumur və qulaqlarını tıxayır. Bəzən isə yaxşılıq etməyə imkan tapa bilmədikləri və ya qarşılıqsız qaldıqları üçün passiv qalırlar. Bu, təbiidir. Amma bu, yaxşılıq edənlərin işinə mane olmaq anlamına gəlməməlidir. Bir yetimin üzünün gülməsi, bir kasıbın sevinməsi, bir körpənin həyəcanlanması heç kimi narahat etməməlidir.

Yaxşılıq edən insanın cəmiyyət içində tanınıb mövqeyinizi əlinizdən alacağından qorxmaq da yersizdir. Çünki yaxşılıq edən insanın qəlbində zərər vermə hissi olmaz. Necə ki, xeyir ilə şər bir yerdə olmadığı kimi, yaxşılıqla pislik də bir araya gəlməz. Xeyir ilə şər bəşəriyyətin başlanğıcından bu günə qədər mübarizə içərisindədir. Bu səbəbdən kiməsə yaxşılıq edərək xeyir tərəfdə olan bir insan başqasının əlində olanı alıb ona zərər verməklə şər tərəfə keçməz.

Ona görə də hər zaman yaxşılıq etməyə və yaxşılığa səbəb olmağa çalışın.

Unutmayın ki, bir cəmiyyətdə yaxşılar pislər qədər cəsur olmadıqca o cəmiyyətin qurtuluşu mümkün deyil.

Bütün çətinliklərə baxmayaraq yaxşılıq yaxşıdır.

**Tural QASIMOV**
İlahiyyatçı

# SÜNİ İNTELLEKT VƏ MƏNƏVİYYAT



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Elm inkişaf etdikcə insan daha da irəli getmək istəyir. Daha da rahatlıq düşüncəsiylə insanların tənbəlləşməsi də artır. Bu gün dünyanın gündəmini süni intellekt zəbt etməkdədir. Artıq maşınlar düşünür, robotlar danışır, proqramlar yazı yazır, şəkillər çəkir, musiqi bəstələyir. Bəzən insan öz-özünə sual etmədən də dura bilmir: "Bəs mənim yerim haradadır? Texnologiya məni əvəz edəcəkmi? İnsanlıq bu yarışda geridəmi qalacaq?"

Bəli, süni intellekt riyaziyyatı, məntiqi, informasiyanı emal edə bilər. O, hesablaya bilər, analiz edə bilər, nəticə çıxara bilər. Amma vicdanı, mərhəməti, məhəbbəti, qəlbi əvəz edə bilməz. Çünki vicdan – Allahın insana verdiyi ilahi bir nemətdir. Qurani-Kərimdə buyurulur: "And olsun nəfsə və onu yaradana. Sonra ona fücurunu (pisliyini) və təqvasını (xeyirini) öyrədənə" (Şəms, 7-8). Bu ayə göstərir ki, insanın ən böyük üstünlüyü onun mənəvi aləmidir. Süni intellektin kodları var, insanın isə qəlbi.

Bugünkü texnologiya inkişafı bir həqiqəti daha açıq göstərir: elm yüksəlir, amma əxlaqın da yüksəlməsi zəruridir. Əgər elm imanla yanaşı getməzsə, texnologiya bəşəriyyətə fayda deyil, zərər də gətirə bilər. Atom enerjisi buna misaldır – həm elektrik verir, həm də silaha çevrilir. Süni intellekt də belədir: ya insanlığa xidmət edəcək, ya da insanı öz mənəviyyatından uzaqlaşdıracaq. Bu, hənçinin bütün texnologiya alətləri üçün də keçərlidir.

Peyğəmbərimiz (s.ə.s.) buyurur: "Əməllər niyyətlərə görədir". Əgər niyyət safdırsa texnologiya da faydalı olar. Amma niyyət zədəli olarsa ən müasir ixtira belə insanı məhvə apara bilər. Süni intellektin necə istifadə olunacağı insanın niyyətindən asılıdır.

Odur ki, XXI əsrin insanı qarşısında böyük bir seçim dayanır: elmi imanla birləşdirmək. Biz gənclərimizə yalnız texnologiyanı deyil, həm də əxlaqı, mənəvi məsuliyyəti öyrətməliyik. Çünki robotun qəlbi yoxdur, amma insanın var. Qəlbi olan, vicdanı olan, Allah qarşısında cavabdeh olan yalnız insandır. İslam dini elm öyrənmə demir, əksinə, Quranın ilk əmri "oxu"dur. İnsan elmlə birlikdə kainatı da oxumalıdır. Bir insan sadəcə elm öyrənərsə sadəcə yaxşı bir həkim, yaxşı bir mühəndis, yaxşı müəllim olar. Ancaq mənəviyyatı da mənimsəyərsə əlindəki neştəri tutarkən sadəcə maddiyyat xətrinə deyil, insanlığın yaşaması üçün əməliyyata girər; bir mühəndis binanı tikərkən insanların qeydinə qalaraq sağlam bina inşa edər; mənəviyyatlı bir müəllim şagirdinin həqiqət elmini də mənimsəməsinə can atar.

Süni intellekt dövründə ən böyük vəzifəmiz qəlbimizi qorumaqdır. Çünki texnologiya nə qədər inkişaf etsə də, insanı insan edən əsas keyfiyyətlər – mərhəmət, vicdan, sevgi və empatiya yalnız qəlbdən qaynaqlanır. Elm və texnologiya bizə böyük imkanlar verir: bizə məlumatı sürətlə əldə etməyə, xəstəlikləri müalicə etməyə, uzaq məsafələri yaxın etməyə kömək edir. Ancaq bütün bu imkanlar yalnız vasitədir, məqsəd isə həqiqi insan olmaqdır.

Elm bizi bilik sahibi edir, amma mənəviyyat bizi insan edir. Tarixdə elmin inkişaf etdiyi dövrlərdə də insanlığa qarşı böyük haqsızlıqlar baş verib. Bu da onu göstərir ki, təkcə bilik kifayət deyil, əgər biliklə yanaşı mənəviyyat da yoxdursa, həmin bilik bəzən dağıdıcı gücə çevrilə bilər. Ona görə də biz həm ağlımızı, həm də qəlbimizi eyni anda inkişaf etdirməliyik.

Atalarımızın dediyi kimi: "Alim olmaq asandır, adam olmaq çətin". Bu deyim zaman keçdikcə daha da aktuallaşır. Bugünkü dünyada bilik əldə etmək heç vaxt olmadığı qədər asandır. Bir neçə tıklamaqla böyük kitabxanalara çıxış əldə edə, süni intellektin köməyi ilə mürəkkəb problemləri həll edə bilərik. Lakin insan olaraq mənəvi bütövlüyümüzü qorumaq, doğrunu-yanlışı ayırd etmək, başqasının ağrısını hiss etmək bacarığı hələ də ən çətin və ən dəyərli keyfiyyət olaraq qalır.

Bu çətinliyi aşmaq üçün biz həm texnologiyanı, həm də ruhumuzu inkişaf etdirməliyik. Əgər texnologiyanı yalnız maddi inkişaf üçün istifadə etsək, bir gün onun əsirinə çevrilə bilərik. Lakin texnologiyanı mənəviyyatla birləşdirə bilsək – insanlığa xidmət edən, şəfqəti təşviq edən, dünyanı daha ədalətli edən bir gücə çevrilə bilər. Bu tarazlığı qorumaq bizim üzərimizə düşən ən mühüm vəzifələrdən biridir.

Unutmamalıyıq ki, ağıllı olmaq kifayət deyil, yaxşı insan olmaq lazımdır. Yalnız bu zaman süni intellekt və texnologiya dövründə də insan olaraq qalmağı bacararıq.

## QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRİN TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRİ ÜÇÜN NOYABRDA KEÇİRİLƏCƏK İMTAHANLARA QEYDİYYAT OKTYABRIN 8-NƏ KİMİ DAVAM EDƏCƏK

Noyabrda imtahan vermək istəyən təcrübəçi (praktikos) statusu olan müəllimlər üçün qeydiyyat 25 sentyabrda başlayıb və 8 oktyabr saat 18:00-a qədər davam edəcək.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz (NAEC) tərəfindən dərc edilmiş məlumata görə, imtahanın adı bu cürdür: "Qeyri-gürcüdilli məktəblərin/sektorların təcrübəçi müəllimləri və xüsusi təcrübəçi müəllimlər üçün kompetensiyanı təsdiq edən imtahan".

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin məlumatına görə, təcrübəçi statusu olan və müəllim kimi fəaliyyət göstərənlər yalnız "online.naec.ge" veb-səhifədə elektron qaydada qeydiyyatdan keçə biləcəklər. Qeydiyyat pulsuzdur.

Qeyd edək ki, xüsusi təcrübəçi müəllim statusu olan pedaqoqlar yalnız xüsusi baş müəllim imtahanı verə bilərlər. Təcrübəçi müəllim statusu olanlar isə aşağıdakı siyahıda olan fənlərdən birindən imtahan verə bilərlər:

- Riyaziyyat (ibtidai pillə);
- Təbiətşünaslıq (ibtidai pillə);
- Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Gürcü dili qeyri-gürcüdilli məktəblər və sektorlar üçün (ibtidai, baza və ya orta pillə);
- Riyaziyyat (baza və ya orta pillə);
- İctimai elmlər (baza və ya orta pillə): tarix, coğrafiya, vətəndaş təhsili;
- Təbiət elmləri (baza və ya orta pillə): fizika, kimya, biologiya;
- Xarici dillər (ibtidai, baza və ya orta pillə): ingilis, alman, fransız, rus dili;
- Təsviri və tətbiqi incəsənət;
- Musiqi;
- İdman;
- İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları;
- Azərbaycan dili imtahanı;
- Erməni dili imtahanı.

Qeydiyyat zamanı müvafiq imtahanı gürcü, eləcə də Azərbaycan, erməni, rus dillərində vermək mümkündür.

Spesifik imtahan mühiti istəyən iştirakçılar qeydiyyat zamanı "xüsusi şərtlər"i seçməli, 8 oktyabr saat 18:00-a qədər Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə (ünvan: Tbilisi, E.Mindeli N9), regionlarda isə yerli resurs mərkəzlərə müvafiq sağlamlıq kağızı (forma 100) təqdim etməlidirlər.

Xatırladaq ki, qeyri-gürcüdilli məktəblərin təcrübəçi müəllimləri və xüsusi təcrübəçi müəllimləri üçün imtahanlar cari ilin noyabrında keçiriləcək.

## HANSI MÜƏLLİMLƏR ON AY ƏRZİNDƏ HƏR AY 50 LARİ ALACAQLAR?



Marneuli bələdiyyəsinin 2025-ci il büdcəsində ümumi təhsilin əlçatanlığı üzrə proqram hazırlanıb. Proqram həvəsləndirmə qaydasını əhatə edir.

Qeyd olunan qayda əsasında Marneuli bələdiyyəsinin qeyri-gürcüdilli məktəblərində gürcü dili ikinci dil kimi fənn proqramını həyata keçirən müəllimlər maliyyələşdiriləcəklər.

Pedaqoqlar iyul və avqust ayından başqa hər ay 50 lari alacaqlar.

"Proqram "Marneuli bələdiyyəsinin ümumtəhsil məktəb müəllimlərinin həvəsləndirilməsi qaydası" əsasında Marneuli bələdiyyəsinin qeyri-gürcüdilli məktəblərində gürcü dili ikinci dil kimi fənn proqramını həyata keçirən müəllimlərin ilin on ayı ərzində (iyul və avqustdan başqa) hər ay 50 lari dəyərində maliyyələşdirilməsini nəzərdə tutur" – sənəddə deyilir.

## DÖVLƏT DİLİ İMTAHANININ KEÇİRİLMƏ QAYDASI TƏSDİQLƏNİB



Gürcüstan hökumətinin qərarı ilə dövlət dili imtahanının keçirilmə qaydası təsdiq edilib.

Test imtahanı dövlət dilini bilmə səviyyələrinə (A1, A2, B1, B2, C1) uyğun olaraq keçiriləcək. Qeydiyyatdan keçən hər kəsin imtahanda iştirak etmək hüququ var.

Qeyd edək ki, imtahan ildə bir neçə dəfə keçirilə bilər, qeydiyyat isə 50 laridir.

İmtahanın keçirilməsinə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi rəhbərlik edəcək, imtahanın keçirilməsini isə mərkəz təmin edəcək.

Mərkəz müraciət etdiyi halda ümumtəhsil müəssisəsi və təhsil resurs mərkəzləri qeydiyyat və imtahanın keçirilməsinə dəstək olacaq şərait yaratmalıdırlar.

"Mərkəz müraciət etdiyi halda dövlət tərəfindən təsis edilmiş təhsil müəssisəsi imtahanı və imtahandan əvvəl yoxlayış testinin keçirilməsi üçün onun istifadəsində olan binaların və ya binadakı lazımi sahənin ayrılmasını təmin etməlidir" – qərarda deyilir.

## STATUSUNA GÖRƏ SXEMƏ QOŞULMUŞ MÜƏLLİMLƏRİN SAYI AÇIQLANIB




Gürcüstanın Maliyyə Nazirliyi tərəfindən təqdim edilmiş sənəd 2025-ci ilin I-VI ayını əhatə edir. Sənəddə neçə müəllimin baş, aparıcı, mentor statusu olduğu göstərilir.

Bildirilir ki, "Müəllim və direktor peşəsinin tənzimlənməsi" proqramı çərçivəsində hesabat dövründə 167 müəllimə baş müəllim, 47 müəllimə xüsusi müəllim statusu verilib. Eləcə də əlavə 63 nəfər "axtaran" müəllim proqramına qoşulub, 144 nəfər "axtaran" müəllim proqramına qoşulan şəxs akademik kursu uğurla başa vurub. "Axtaran" müəllim proqramı ilə əlaqədar məktəb direktorları, "axtaran" müəllimlər və tutorlarla beş məlumatlandırıcı görüş keçirilib.

Hesabat dövründə ictimai məktəblərin 52083 müəllimi sxem çərçivəsində bölünüb. Onlardan 4491-i (8,6 %) təcrübəçi/"axtaran"/statussuz, 37880-ni (72,7 %) baş, 8890-nı (17,1 %) aparıcı, 822-si (1,6 %) mentordur. Eləcə də sxem çərçivəsində ictimai məktəblərin 2351 xüsusi müəllimi qeyd olunub. Onlardan 634-ü (27 %) təcrübəçi/statussuz, 1707-si (72,6 %) baş, 10-u (0,4 %) aparıcıdır.

*Səhifədəki məlumatlar edu.aris.ge və etaloni.ge saytlarından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA*

# ZƏFƏRƏ GEDƏN YOLUN KOR İŞIQLARI



Həssas insanlar yaxşı xatırlayar altıncı sinfin Azərbaycan ədəbiyyatı dərsliyində Səməd Vurğunun "Ananın öyüdü" şeirini.

Bəli, biz o dövrü görmədik, amma şeirlərdən, filmlərdən bir xatirə yaratdıq. Orada qəhrəman ana da vardı, oğul da vardı. Qəlbinə daş bağlayıb, göz yaşını udub:

"...Payız vaxtı bağçamızın heyvaları dəyəndə,

Göndərərəm sovqatını – sənin də öz payını,

Sən də artır öz əlinlə zəfərlərin sayını",

– deyən ananı görmədik, amma sevdik, yaddaşımızın ləyaqət, hünər simvoluna çevirdik.

Bəli, biz o dövrü görmədik, amma 21-ci əsrin 20-ci ilinin Zəfərə gedən yolunu gördük, yaşadıq.

Bilmirəm mənəmi elə gəlir, yoxsa doğrudanmı belədir. İnsanlar müharibələr zamanı bir başqa olur. Sanki kədər adamları bir-birinə doğmalaşdırır, sevinc ortağına, dərd parasına çevirir.

Mən uşaqlıqda anamın Bakıya, mitinqdəki adamlara, Azadlıq meydanına gedən yardım karvanına necə maraqla, qayğıyla sovqat düzəltməyinin, Ermənistandan ellilərimizi məcburi köçürəndə onları Borçalının sərhəd kəndlərində necə qarşılamaqlarının şahidiyəm, tanımadıqları hər kəsə elə doğma yanaşırdılar ki... Günlərlə evlərində qonaqlayırdılar, geyim verirdilər, kimin nəyə imkanı çatır pul verirdi. Sonra onları Azərbaycana necə kədərlə yola salmaqlarının şahidiyəm, kədərli bir uşaqlıq xatirəsi kimi...

Yaxın tarixdə Türkiyədə baş verən zəlzələ zamanı necə yekdil olmağımız yadınızdamı? Qocadan cavana, əl arabasında saxlama yorğan-döşəyini aparan nənədən daxılını açıb – "Ata, bu pulu da fonda ver" – deyən qızıma qədər...

Beş il əvvəl biz yenə beləcə yekdil idik. Birimiz hamımız üçün, hamımız birimiz üçün yaşayırdıq sanki. Heç pandemiyanın qadağaları bizi o qədər narahat etmirdi, nəinki millətdaşlarımız. Yox, bu, siyasi maraq deyildi. Bu bir doğmalıq hissi idi. Hərəmiz bir bağla bağlanmışdıq Azərbaycana. Kiminin doğması, kiminin dostu, tanışı, əsgər yoldaşı, tələbə yoldaşı... bəlkə də illərdir yadımıza düşməyən kəsləri yada salır, əhvallaşırdıq. Elə doğma idik! Hər bir kəndin, qəsəbənin azad olması nəinki Bakı küçələrində, bütün ailələrdə təntənəli qeyd olunmaqdan başqa, telefonlar da susmurdu. Nar çubuqları kimi dəstə idik. Bu mehribanlıq, doğmalıq bizi elə möhkəm birləşdirdi ki. Tanrı da yolumuzu açıq etdi, yolumuz ZƏFƏRLƏ bitdi. Bəli, Azərbaycan qızıl xətlərlə tarix yazdı.

Mən hiss edirəm ki, zaman qaynar tarixdən uzaqlaşdıqca mənim fəxr etdiyim nar çubuqlarının dəstəsi seyrəlir. Niyə axı? Yəni bizi bir-birimizə doğmalaşdırmaqdan ötrü mütləq kədərmi lazımdır? Eh, bu çubuqlar tək qohumluqda olsa nə vardı ki...

Bəziləri görünən dağa bələdçilik edir. Bəziləri milçəkdən fil düzəldir. Deyirəm, görəsən heç özlərinə sual verən varmı ki, mən bu xalq, dövlət üçün nəsə etmişəmmi və ya edə bilərəmmi.

Azərbaycanın zəfərə gedən yolu illərlə düşünülmüş, yazılmış, siyasi bir memar işi idi. Başladı və qalib gəldi! Bunu bacaracaq başqa bir lider var idimi? Əminəm, yox. Azərbaycan öz siyasi xəttini davam etdirir. Əsas odur ki, Gürcüstanla dost ölkədir, Rusiya ilə neytralda, İranla xoş münasibət qurur, Ermənistanla "məndən aralı dur, sənlə işim yoxdur" deyir, Avropayla az aşım, ağrımaz başım deyir. Sərhəddi də açmır, deməli, belə lazımdır. Mən evimə hasar çəkirəm, belə istəyirəm. Ailəmi də belə saxlayıram. Vəssəlam!

Məgər Azərbaycanda kasıb var? And içərəm, yoxdur. Əgər 3-5 nəfər varsa, onlar da sadəcə fərasətsizlərdir, gözləyirlər "almadıqları lotereya" ilə maşın udsunlar. Vallah, elədir. Azərbaycandakı sosial-iqtisadi vəziyyəti şahid kimi "Bakı xatirələri" silsilə məqalələrində yazmışdım. Təkrar tək onu deyim ki, bir mağazada bir gün alver getməsə iflas olar. Bakıda minlərlə dükan, bazar işləyir, restoranlar, kafelər saysız, küçələrdə avtomobil əlindən yer yox, toy, nişan, milli yıxıcı adətlərimiz öz yerində... Bəs bu idxalı kim yaradır? Əlbəttə, naşükür insanlar. Deyəsən, Tanrı belə naşükürləri silkələmək üçün fəlakətlər yaradırmış.

Danışdıqları söhbətlərin fövqündə heç bir məntiq olmayan, hansı məşhəbə, siyasətə, mənəviyyata xidməti məlum olmayan adamlar görəsən heç düşünürlərmi: mən bu millət, dövlət üçün kiməm?! Yəqin suala cavab verə bilməz deyə bağırır ki, öz nahaqq səsiylə haqq səsini kəsə, qalib gələ. Əsla! Yel qayaya toxunmaz, sadəcə könül bulandırar.

Zəfərin mübarək, Azərbaycan! Sağ əlin Gürcüstanın başına.

**Esmira ƏLƏKBƏRLİ**

Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi

# QIZILCA BARƏDƏ ETNOQRAFİK QEYDLƏR



Qızılca infeksion xəstəlikdir. İnsandan insana keçə bilər. Xəstəliyin tibbi xarakteristikası barədə nəsə demək, fikir bildirmək bizlik bir məsələ deyil. Sahənin mütəxəssisləri var, məsələ barədə onlardan ağlabatan nələrsə öyrənmək daha məntiqlidir.

Biz bu yazıda qızılca ilə bağlı xalq təbabətindən bir neçə örnək verməklə, habelə xalq inanclarımızda bu xəstəliklə mübarizə məqsədilə tətbiq olunan yöntəmlərlə bağlı fikirlərimizi oxucu ilə bölüşmək niyyətindəyik.

Sözarası qeyd edək ki, qızılcaya uşaq xəstəliyi kimi baxılsa da, əslində bu infeksiyaya istənilən yaşda tutulma ehtimalını tibb elmi təsdiqləyib və ondan qorunmanın yöntəmləri yaradılıb.

Yaxın keçmişə qədər qızılcaya yoluxma qorxulu bir xəstəlik sayılırdı. Qızılcaya qarşı peyvəndin, tibbi xidmətin yoxluğu, şəxsi gigiyenanın əlçatmaz olduğu bir dövrdə insanların onu qorxu ilə qarşılaması təbii sayılmalıdır. O üzdən ki, aşıq gördüyünü çağırar demirlərmi? İnsanlar bu infeksiyaya yoluxmanın fəsadlarını gözləri ilə görürdülər. Qızılcadan sonra çopurluq, korluq, hətta ölüm kimi hallar meydana çıxırdı. Yaxınlarından biri qızılcaya yoluxan kimi ailə üzvləri əl-ayağa düşür, türkəçarə vasitələrlə onun təsirini azaltmağa çalışırdılar.

İlk növbədə qızılcaya yoluxmuş uşağı ailənin digər üzvlərindən aralı tutmağa cəhd edirdilər. Düzdür, patriarxal, yəni böyük ailədə bunu həyata keçirmək o qədər də asan iş deyildi. Ona görə ki, böyük ailədə yaşayanların sayı çox olurdu. Bundan əlavə, böyük ailənin yaşadığı "qaradam" tipli qazma evlərdə və ya çiy kərpicdən tikilmiş kiçik evlərdə xəstəni izolyasiya etməyin öz çətinlikləri vardı. Üstəgəl, xatırlatdığımız kimi, tibbi vasitələrin, tibbi xidmətin yoxluğu xəstəliyin müalicəsini mümkünsüz edirdi. Əlac qalırdı xalq təbabətinə, ara həkimi adlandırılan, xalq arasından çıxmış "laxvan" – loğmanlara. Sözarası qeyd edək ki, hər eldə müxtəlif xəstəlikləri təbii vasitələrlə müalicə edən belə həkimlərə rast gəlmək olurdu. Orasını da qeyd edək ki, xalq təbabəti bilicilərini əski dönəmlərdə "otçi" adlandırırlarmış. Bu bilgini də türk dillərinin mahir bilicisi Əbu Həyyanın lüğətindən əldə etmişik. Görünür, həkimlər istifadə etdikləri dərmanları əsasən bitkilərdən hazırladıqları üçün onları "otçi", yəni "otçu" adıyla çağırırmışlar. Onlar ata-babalardan qalma, nəsildən-nəslə ötürülən üsul və vasitələrlə pis-yaxşı müxtəlif xəstəliklərin öhdəsindən gələ bilirdilər. Qızılca da belə xəstəliklərdən biri idi.

Qızılcaya yoluxmuş xəstənin yatdığı yerin isti olması qayğısına qalırdılar. Çünkü qızılcanın əlamətlərindən biri də xəstənin hərarətinin yüksək olması idi. Hərarətin soyuqdəymə nəticəsində yarandığını düşünən ağsaqqallar, ağbirçəklər evin isti saxlanmasına diqqət yetirirdilər. Başqa nə edə bilərdilər ki? Onlar da özlərindən əvvəlki nəsildən estafeti bu cür qəbul etmişdilər.

Bədənin qırmızı səpgilərlə örtülməsi xəstənin qızılcaya yoluxmasını təsdiq edən ən etibarlı fakt idi. Ailə üzvlərindən birinin və ya bir neçəsinin qızılcaya yoluxması ilə ailənin başbilənləri məsləhət-məşvərətdən sonra kəndin arasına düşüb eşşək südü axtarışına çıxırdılar. Ötən əsrin altmışıncı illərində Nikita Xruşovun eşşəklərə vergi tətbiq etməsindən sonra kənd yerlərində bu biçarə heyvanların sayı kəskin şəkildə azalmış, eşşək südü tapmaq müşkül məsələyə çevrilmişdi. Bəzən bir fincan eşşək südü əldə etmək üçün ailə üzvləri bir neçə gün kəndbəkənd gəzməyə vadar olurdular. Nəhayət, min bir əziyyətdən sonra tapılan eşşək südünü dada pisliklə xəstəyə içirməyə çalışırdılar. O üzdən ki, ağı qaradan seçə bilən uşaqlar bu südün eşşək südü olduğunu bildiklərindən iki ayaqlarını bir başmağa dirəyib eşşək südünü içmək istəməzdilər. Bir tərəfi zorluqla, bir tərəfi xoşluqla qılıq-sülük zülmlə tapılmış südü xəstəyə içirə bilirdilər. Uşaqların eşşək südündən imtina etmələrinin səbəbi isə bu heyvanın xalq arasında qanmazlığın, kütbeyinliyin simvolu olmasıyla bağlı idi. Görünür eşşək südü içdikdən sonra eşşək kimi olacaqlarını, kəsəsinə deyim, eşşəkləşəcəklərini güman edən uşaqlar bu südü içmək istəmirlərmiş.

O vaxtın uşaqları haradan biləydilər ki, zaman gələcək eşşək südü delikatesə çevriləcək, litri 150-200 dollara tapılmayacaq, ömürlərini uzatmaq üçün avropalılar bizim uşaqların bəyənib içmədikləri eşşək südünün növbəsinə duracaq və bəzi qurddanquş adamlar da eşşək fermaları təsis edib, eşşək südü istehsalına girişib, pula pul deməyəcəklər. Bir də ki, o vaxtın uşaqları bunları haradan bilə bilərdilər. Düz-əməlli televiziya yox idi, internet haqqında, tövbələr olsun ,bilən vardısa. Söz düşmüşkən, bir vaxtlar bizim bölgədə də bir eşşək ferması ortaya çıxarmışdılar. Düzünü desəm, o fermanın fəaliyyət göstərib-göstərmədiyindən xəbərim yoxdur.

Qızılcaya yoluxmuş uşaqların yatağı qırmızı parçadan üzü olan yorğan-döşəkdən ibarət olurdu. Belə xəstələrin başına qırmızı papaq və ya qırmızı yaylıq bağlayırdılar. Güman edirdilər ki, qırmızı yorğan-döşəkdə yatan, başına qırmızı bağlanan xəstənin qızılcası tez qayıdacaq. Qırmızı rəngin Günəşin, odun-ocağın bəlgəsi olması, Günəşin, odun-ocağın şər qüvvələri, xəstəlik gətirən ruhları qovmaq, neytrallaşdırmaq kimi xüsusiyyətləri barədə isə ötən yazılarımızda söhbət açmışıq. Qızılcanın qırmızı səpgilərlə müşayiət olunması onun xəstədən uzaqlaşdırılmasının qoruyucu, neytrallaşdırıcı Günəşin, odun-ocağın rəmzi olan qırmızı rənglə mümkün olacağını düşünən əcdadlarımız belə bir yöntəmə əl atmışlar. Xəstəliyin səbəbini bilməyən əski insanların bu cür düşünməsi də təbii sayılmalıdır.

Daha bir yazının da sonuna gəldik. Ağrıdan-acıdan uzaq olmanız diləyiylə bu yazını da nöqtələyirik.

**Afiq MUXTAROĞLU**



# BALA MUĞANLININ BÖYÜK OĞLU

*(əvvəli ötən sayda)*

***

Azərbaycan Respublikasının xalq rəssamı Toğrul Nərimanbəyovun onun 80 illik yubileyinə yazdığı xatirədən bir parça:

"Yadımdadır, "Azərnəşr"də işlədiyi dövrlərdə çalışırdı ki, mən bəzi kitablara illüstrasiyalar çəkim. Mən isə belə işlərdən qaçırdım. Axır məni dilə tutub inandırdı ki, millilіklə bəşəriliyin harmoniyasının ustadı olan Toğrul Nərimanbəyov nağıllarımıza, dastanlarımıza illüstrasiya çəkməyəndə, bəs kim çəkəcək?! Gərək sən çəkib örnək olasan ki, o birilər də sənə baxıb bu işi davam etdirsinlər...

Nə isə, Vilayətin təkidi ilə bir neçə nağıl və dastan kitablarına illüstrasiyalar çəkdim. Çox maraqla qarşılandı. Mən onun öz portretini də çəkmək fikrindəydim. Hətta bu portretin adını da müəyyənləşdirmişdim: "İşıqlı adam". Amma obyektiv səbəblər üzündən bu, baş tutmadı. Mən 1987-ci ildə ABŞ-da, sonra Lüksemburqda, daha sonra Parisdə yaşamaq zorunda qaldım.

Mənim Filarmoniya ilə üzbəüz olan emalatxanamın divarında qalın rənglə Vilayət Rüstəmzadənin ev telefon nömrəsi yazılıb. Bir dəfə Parisdən Bakıya gələndə götürüb ona zəng etdim. Kədərli bir qadın səsi eşitdim: "Vilayət bir neçə ildir ki, dünyasını dəyişib"...

Elə bil telefonun dəstəyi əlimdə ağır bir qantelə döndü. Mən inana bilmədim ki, bu nikbin, güləruz, içi, çölü işıqla dolu olan insan nə vaxtsa dünyasını dəyişə bilər".

Görkəmli alim və tənqidçi Vaqif Yusiflinin xatirələrindən:

"...Vilayət Rüstəmzadə ədəbi mühitdə çoxlarını xatırlayır, onlar haqqında xoş xatirələr söyləyirdi. Deyirdi ki, Osman Sarıvəllinin, Süleyman Rüstəmin, Əli Vəliyevin onun həyatında böyük rolu olub. Mehdi Hüseyn haqqında isə belə deyirdi: "Mehdi Hüseyn böyük şəxsiyyət idi. O, mənim mənsub olduğum ədəbi nəslin atasıydı. Yazılarımızdan tutmuş mənzil məsələmizə qədər hər şeylə maraqlanırdı".

Vilayət Rüstəmzadə ədəbiyyata sazlı-sözlü bir diyarın – Borçalının şeir havasından gəlmişdi.

*Ey vay! Bu nə səsdi, bu nə soraqdı –*
*Kükrəyib çağlaya-çağlaya gəlir?!*
*Dastan dünyamızmı varaq-varaqdı –*
*Könlümü dağlaya-dağlaya gəlir?!*
*Qalxır, havalanır Qorqud nəfəsi,*
*Qopur Koroğlunun dəli nərəsi,*
*Dilqəmin, Kərəmin ahı-naləsi,*
*Hönkürüb ağlaya-ağlaya gəlir...*
*Tarixə bəxş etdi Azər elləri*
*Bir tut kötüyündə "Sarıtel"ləri.*
*Ay dad! Qıfılbəndin hikmət dilləri*
*Dilimi bağlaya-bağlaya gəlir.*

Vilayət Rüstəmzadənin doğma kəndi, Borçalı, aşıq havaları, ustad aşıqlar və şairlər, Azərbaycanın təbiət gözəllikləri ilə bağlı şeirləri çoxdur və o şeirlərin hər birində bir saz havası duyursan. O, səyahət etdiyi ölkələri, oradakı səmimi insanları, yaddaşında iz salan çayı, dənizi, meşələri, dağları da şeirə gətirirdi. Amma əsas mövzusu yenə Azərbaycan torpağı, Azərbaycan elləri, Azərbaycan insanı idi".

Görkəmli yazıçı Əkrəm Əylislinin "Əylisdən Əylisəcən" memuarından Vilayət Rüstəmzadə barədə hissələr:

"...Ancaq söhbəti Litinstitutun üstünə gətirməkdə indi mən bu sayaq, necə deyərlər, ümumbəşəri mövzulara toxunmağı qarşıma məqsəd qoymamışam, Litinstitutu mənimlə bir vaxtda qurtaran azərbaycanlı tələbələrin hamısının həyatında sonralar mühüm rol oynayan bir faktın üstündən keçə bilmədiyimə görə – istəsəm də, istəməsəm də – bu faktın "müəllifinin" haqqında da mütləq nəsə deməliyəm. Və bu "müəllif", məlumunuz olsun ki, Vilayət Rüstəmzadə idi.

Vilayəti şair və tərcüməçi kimi, əlbəttə, çoxları tanıyır. Mənsə bu yazıda Litinstitut tələbəliyi dövründə Vilayətdə şəxsən müşahidə elədiyim bir-iki başqa keyfiyyəti də qələmə almalıyam. Çünki bunları deməsəm, demək istədiyim əsas məsələ bir növ havadan asılı qala bilər.

Əvvəla, bunu deməliyəm ki, o vaxt Litinstitutda oxuyan azərbaycanlı tələbələrin arasında adına "ictimaiyyətçi" deyiləsi bircə adam vardısa, o da, heç şübhəsiz, Vilayət idi. Moskvanın harasında Azərbaycanla bağlı nə vardısa, onu Vilayət mütləq bilirdi: hansı institutda neçə nəfər azərbaycanlı təhsil alır, hansı bazarda Azərbaycandan nə qədər adam alver eləyir, hansı həbsxanada nə miqdarda azərbaycanlı məhbus cəza zəkir – hətta az qalıram deyəm ki, bu adamların hansının hansı rayondan olmağı barədə də Vilayətin bəs qədərində məlumatı vardı. Bundan əlavə, bütün "müsəlman aləminin" o zaman sayılan-seçilən adlı-sanlı ədəbi simaları ilə də Vilayət, necə deyərlər, lap kefin istəyən kontakt yarada bilmişdi. Məsələn, Rəsul Həmzətovla Vilayət telefonda (ya elə üzbəüz söhbətdə) təxminən belə danışırdı: "Rasul bey! Da, eto Vilayet Rustamzade! Tı çto, starina, priyexal vı Moskvu i svoix druzey ne işşeş? Nu, oryol je tı, starik! Veliçina qordoy poezii kafkazskoy!.. Jdi zavtra vezero. No ne vzdumay druzey podvesti. Derjis, derjis, starik. Znay, zto arlyata tvoi tebya tixo abajayut..."

O dövr amerikalı Heminqueyin bütün SSRİ məkanında birdən-birə tanınıb məşhurlaşdığı dövr idi. O zaman Vilayətin də dilindən düşməyən bu, "starik" və "starina" sözləri, mənə elə gəlir ki, o dövrün Moskva jarqonuna Heminqueyin əsərlərindən keçmişdi. Ancaq söhbət bunda deyil. Məsələ burasındadır ki, Vilayətin təkcə Rəsul Həmzətovla yox, misal üçün, Kaysın Quliyev və Çingiz Aytmatovla da eynilə bu jarqonda, bu şəkildə, bu ərklə danışmağının mən özüm bir neçə dəfə şahidi olmuşdum. Bu adamları Vilayət, söz yox, özününkü sayırdı və özününkü saydığı belə məşhur adamlarla danışanda sanki Vilayət danışdığı dilin də (bu halda rus dili-ni) "özününkü" olduğunu bir qəribə uşaq sevinci ilə cani-dildən nümayiş etdirirdi.

Vilayət rus dilini həqiqətən yaxşı bilirdi. Bununla belə, hərdən mənə elə gəlirdi ki, Vilayətin bildiyi rus dili məhz Rəsul Həmzətov, yaxud Çingiz Aytmatov kimi "qeyri-ruslarla" danışmaqdan ötrü olan xüsusi bir "rus dili"dir.

Vilayətdəki bu unikal əməlgirlik hətta Litinstitut folklorunda da, zənnimcə, özünün kifayət qədər "layiqli əksini" tapmışdı. O anektod belə idi:

Bir gün rektor, axşamtərəfi yataqxanaya xəlvəti reyd eləmək qərarına gəlir. Ancaq Vilayətdən sirmi gizlətmək olar? Vilayət "öz kanalları" ilə bundan xəbər tutur və hələ günortadan işə girişir. Hər yeri silib-süpürüb, otağında ideal sahman yaradır. Rektor gələnə yaxın çayı da dəmə qoyub oturub gözləməyə başlayır. Ancaq iş elə gətirir ki, əvvəl rektor abxaz balası Volodya Ankvabın otağına baş çəkməli olur. Litinstitutda "bazlıq" məsələlərində məxsusi hörmət və avtoritet sahibi olan Ankvab isə, sən demə, elə o gün də "canan" gözləyirmiş və bu münasibətlə özünün əla abxaz konyakından bir qrafin doldurub, stolun üstünə qoyubmuş. Hələ rektor içəri girər-girməz Ankvab xəlvətə salıb konyakı qrafindən çaydana boşaldıb guya izi itirə bilir. Rektor keçib stolun dalında əyləşir. Ankvabla ordan-burdan söhbət eləyir və söhbət əsnasında əlini uzadıb, Ankvabın çaydanından özünə "çay" süzür. Bir dəfə içib özünü o yerə qoymadan, Ankvabın "çay"ından ikinci dəfə də yarım stəkan ləzzətlə nuş eləyəndən sonra rektor otaqdan çıxır və dəhlizdə pusquda dayanmış Vilayət çoxdan gözlədiyi rektoru nəhayət ki, qarmalayıb öz otağına salır. Rektor Vilayətin pürrəngi çayından da içir, hələ onun Azərbaycan çayının şərəfinə söylədiyi parlaq nitqi də səbirlə axıracan dinləyir. Və axırda – Vilayətin otağından durub gedəndə – astananın qabağında rektor belə ərz eləyir:

"Sizin çaya söz ola bilməz, Rüstəmzadə! Azərbaycanlıların çay dəmləməyinə mən lap valeh oldum. Ancaq sən o Ankvabdan bir soruş gör abxazlar çayı necə dəmləyir. Bayaq mən Ankvabın otağında bir stəkan çay içdim və düzü elə bildim ki, əsl Azərbaycan çayı içirəm..."

...Mən yataqxanadan çıxırdım. Vilayət hardansa indicə gəlirdi. Vilayətin sifətindən elə bil alov yağırdı. Gözlərindən od tökülürdü.

– Məni öp, starik! – dedi. Hətta üzünün öpüləsi yerini də mənə öz əli ilə göstərdi.

Mən Vilayətin üzünün düz göstərilən yerindən bir yaxşı busə götürdüm.

– Bəs niyə soruşmursan ki, mən bu saat haradan gəlirəm?

Belə isti-isti buğlanmğından hamamdan gələnə oxşayırsan, – dedim. Və Vilayətin birdən şaqqanaq çəkib gülməyindən bildim ki, Böyük İctimaiyyətçi mənim yumorumdan çox razı qalıb.

– Dahisən, starik! Buğlanmağı əla tapdın. Sayuzdan gəlirəm, starik, orqsekretar Voronkovun yanından. Düz 3 saat 15 dəqiqə kafirnən çənə vurmuşam. Axır ki, inandırdım şovinist oğlu şovinisti. Proyekti dəyişdirdim.

Vilayətin dediyindən heç nə anlamasam da:

– Malades, kişi adamsan! – dedim, Vilayətə sual-zad da vermədim ki, bəlkə söhbət buradaca xətm oluna, çünki o qapının ağzında Vilayətlə üz-üzə gələndə beynimdə nəsə "bişirməkdə" olduğuma görə, mənim də (Merzlikindən beş-betər!) salam-kalamlıq halım yox idi.

Mən ayrılmaq istəyəndə Vilayət ağayana bir ərklə qoluma girdi.

– Hamımız üçün izolirovannı mənzil: kuxnası, hamamı, tualeti!.. Evi, starik, bilirsən, harada tikirlər? Baksovetdən bir az yuxarıda. Əla yerdir! Bu saat şartaşart iş gedir orada. Uzağı noyabrın axırına tikib qurtaracaqlar. Proyektə on dənə birotaqlı mənzil saldırdım. Voronkovu, sən öl, divara dirəmişdim!..

Vilayətin dediklərinə sakitcə qulaq assam da, bu deyilənlərin arxasında hər hansı bir məna ola biləcəyini düşünməyi elə bil mən əvvəlcədən özümə qadağan eləmişdim. Vilayətdən bacardıqca tez aralanmaqdan savayı məni özgə heç bir şey maraqlandırmırdı. Buna görə də mənə xeyli sonralar məlum oldu ki, Bakıda yazıçılar üçün təzə ev tikilir. Bildim ki, o gün Vilayət həqiqətən SSRİ Yazıçılar İttifaqının təşkilati məsələlər üzrə katibi Voronkovun yanına gedibmiş və "əla yerdə" tikilən o yeni binada bizlərdən – yəni Litinstitutu o il (1964-cü ildə) bitirəcək bir qrup tələbədən ötrü, birotaqlı mənzillərin də proyektdə nəzərdə tutulmasını Voronkovla, doğrudan da, kişi kimi həll eləyibmiş..."

Vilayət Rüstəmzadə barədə xoş söz deyənlərin hamısını arayıb axtarsan uzun bir siyahı alınar. Cild-cild kitablar yazmaq olar. O buna layiqdir də. Həm onun ruhuna dualar olar, ruhu şad olar, həm də bunları etmək istəyənlərin xeyirxah işi üzərə çıxar, el-oba, Azərbaycan xalqı görər, feyziyab olar.

**Hörmətlə: Mirzə MƏMMƏDOĞLU**

# CAVAB ATƏŞİ VƏ YA TƏNQİD İÇİNDƏ TƏNQİD



Tənqidi yazılar yazandan sonra əgər sənə cavab yazırlarsa və ya səni də tənqid edirlərsə, deməli nəyi demək istədiyini, nəyi çatdırmaq istədiyini anlayıblar. Bu, əslində tənqidin mahiyyətidir, yəni səni susdurmaq yox, səninlə dialoqa girmək. Mənim üçün isə bu ən böyük göstəricidir ki, tənqid "səs-küy" yaradıb. Çünki səs-küy yaratmayan tənqid tənqid deyil, sadəcə bir fikirdir. Əsl tənqid isə qarşı tərəfi düşündürməli, bəzən də narahat etməlidir. Bunlar varsa, deməli, mərmi hədəfə dəyib. Bunun real nümunəsi isə Aytən Fətullayevanın "Dərdimiz birdirsə, səsimiz də bir olmalıdır" və Validə Fətullayevanın "Sosial yardım reallığı tənbəllik yox, sistemin boşluğudur" adlı məqalələridir.

Aytənin yazısı tənqiddən çox öz mövqeyini müdafiə etməyə və özünü haqlı çıxarmağa yönəlib. Ən diqqətçəkən məqam isə yazının əvvəlində dedikləri ilə sonunda gəldiyi nəticə arasında olan tutarsızlıqdır. Məqalənin başlanğıcında vurğulanan əsas fikir insanların qəlbinə yol açmaq, onların duyğularına toxunmaqdır. Halbuki yazının ikinci hissəsində bu vurğunu tamamlamaq əvəzinə Kolayır kəndinin problemlərindən söz açır. Bu keçid yazının strukturunda uyğunsuzluq yaradır. Çünki məqalənin əvvəlində duyğu üzərindən qurulan yanaşma oxucuda fərqli gözlənti yaradır, amma sonrakı hissədə birdən-birə sosial problemlərin təsvirinə keçid edilməsi bu gözləntini qarşılamaq əvəzinə dağıdır.

Əgər Aytən doğrudan da duyğunun insanları birləşdirən körpü olduğunu göstərmək istəyirdisə, Kolayır kəndindən gətirdiyi nümunələri də həmin emosional kontekstdə işləməli idi. Lakin bu əlaqə qurulmadığı üçün yazının əvvəlində vurğulanan "duyğunun gücü" fikri ilə sonunda çağırış edilən "birlikdə mübarizə aparmaq" fikri arasında boşluq yaranır və bu yazının bütövlüyünü zəifədir.

Aytənin fikrincə, oxucuya duyğu ilə yanaşmağın ən təsirli yolu onun gündəlik həyatında rastlaşdığı problemləri məhz həmin emosional çərçivədə təqdim etməkdir. Mənim baxışım isə bir qədər fərqlidir. Duyğular insanı hərəkətə gətirə bilər, amma onları düşünməyə vadar etmir. Cəmiyyətin əsas problemi də budur – biz çox vaxt ürəyimizlə hərəkət edir, amma gözümüzlə görmək, ağlımızla dərk etmək istəmirik. Jurnalistikanın və ümumilikdə ictimai yazının əsas məqsədi insanların qəlbini yumşaltmaq yox, gözlərini açmaqdır. Çünki qəlbə toxunan sözlər bir anlıq təsir edir, göz açan sözlər isə uzunmüddətli nəticə doğurur. Bəli, duyğu oxucunu cəlb edə bilər, mən bununla razıyam, amma duyğu təkbaşına həqiqəti üzə çıxarmır. Əksinə, həqiqəti çox vaxt kölgədə qoyur. Bir oxucu yazını oxuyanda sadəcə təsirlənməməlidir, həm də öyrənməli, düşünməli, nəticə çıxarmalıdır. Mənim üçün yazının dəyəri oxucunun "bu sözlər məni ovutdu" deməsi deyil, "bu yazı mənə nəyisə başa saldı" deməsidir. Üstəlik, duyğu hər kəsdə var. Amma jurnalistin vəzifəsi yalnız duyğu paylaşmaq yox, reallığı göstərməkdir. Cəmiyyətin problemləri, insanların dərdləri yalnız hisslərlə yox, faktlarla həll olunur. Əgər biz yazılarımızı sadəcə ovutmaq üçün yazırıqsa, bu, insanları gerçəkdən uzaqlaşdırır. Amma məqsəd onları silkələmək, gördüklərinə göz yummamağa çağırmaqdır. Bunu Aytənin özü də bilir və yazının sonunda deyir, lakin mənim üslubuma "sərt" deyir. Mənim yolum sərt ola bilər, bəzən xoşagəlməz görünə bilər. Amma bu sərtlik oxucunu qorxutmaq üçün deyil, oyatmaq üçündür. Çünki dəyişikliklər ürək yumşaqlığı ilə yox, açıq gözlərlə başlayır.

Validənin yazısına gəldikdə isə, əvvəlcə onu deyim ki, tənqidçi həmkarım haqlı olaraq qeyd edir ki, sosial yardım məsələsi çoxşaxəli mövzudur və yalnız emosional yanaşma ilə məhdudlaşdırıla bilməz. Bununla razıyam. Amma mənim yazımın məqsədi elmi məqalə yazmaq deyildi, müşahidəyə əsaslanan bir publisistik yazı idi. Publisistikanın mahiyyəti də ondadır ki, oxucuya təsir etsin, düşündürsün, bəzən də sarsıtsın. Emosional tonun olması da buradan qaynaqlanır.

İkincisi, məqaləmdə yalnız sui-istifadə hallarını qabartdığım iddia olunur. Halbuki yazıda açıq şəkildə vurğulamışam ki, yardım almaq öz-özlüyündə ayıb deyil, hətta ehtiyacı olan üçün vacib dəstəkdir. Mənim əsas tənqidim o insanlara idi ki, sağlam olduqları halda saxtakarlıqla yardım alırlar və bununla da həqiqətən yardıma möhtac insanların haqqına girirlər. Əgər bu detal diqqətdən yayınırsa, deməli, mənim sərt ifadələrim mesajı kölgədə qoyub. Amma niyyətim heç vaxt bütün yardım alanları "tənbəl" adlandırmaq olmayıb.

Üçüncüsü, statistik faktların verilməməsi ilə bağlı deyilən fikrə gəlincə, razıyam, bu, yazını daha güclü edə bilərdi. Lakin mənim bu yazını yazdığım dövrdə statistik məlumatların bu qədər əhəmiyyətli olduğunu, mənbələri necə tapıb istifadə edəcəyimi bilmirdim. Yuxarıda da qeyd etdiyim kimi, məqalə şəxsi müşahidəmin nəticəsi idi və bundan irəli gələrək onda həddindən artıq subyektilik çalarları hiss olunur. Həmçinin bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, tənqidim sistemin boşluqlarını tam arxa plana atmır, əksinə, insan davranışı ilə dövlət nəzarəti arasındakı boşluğu göstərir. Saxtakarlığın kökü həm sistemdədir, həm də fərdlərin seçimində. Əgər hər iki tərəf məsuliyyətli olsa, bu problem də azalacaq.

Dönüb bir müddət əvvəl yazılmış məqaləni oxuyanda mənim özüm də oradakı boşluqları, təcrübəsizliyi, emosiyalarla zəngin subyektivliyi görürəm, amma tənqid mövzusundakı bəzi fikirlərlə razılaşmıram. Çünki tənqiddə məqsədimin həqiqətən sosial yardıma ehtiyacı olan insanların yox, dələduzluqla, sənədlərin saxtalaşdırılması yolu ilə yardım əldə edən şəxslərin olduğunu qeyd etmişdim. Əgər bunlar həmkarıma tam aydın olmayıbsa, deməli, məqalənin bəzi hissələri, bəlkə də bütövlükdə özü onda qıcığa səbəb olub və o da şəxsi duyğulardan irəli gələrək bunları yazıb.

Əslində, mən bununla tam razıyam, çünki yazılarımız öz missiyasını yerinə yetirməyə, oxucular da gözünü açmağa başlayıblar. Qaldı ki, qəlbə yol açmağa, "Yeni Yol" qəzetinin məqsədi inkişafa yol açmaqdır. Nə vaxt ki, "Yeni Yol" jurnalı açılar, onda duyğulardan, eşqdən-məhəbbətdən, fəsillərin dəyişməsindən və ən önəmlisi – xoşbəxtlikdən danışarıq. Öncə problemlər həll olunsun.

**Çiyalə OSMANOVA**
Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi

# VALİDEYNLƏRİN ÜMİDİNƏ QALAN MƏKTƏBLƏR

Sentyabrın 15-də ölkənin bütün məktəblərində ilk zəng çalındı. Minlərlə şagird yeni dərs ilinə başladı. Minlərlə valideyn isə övladının təhsil sevinci ilə yanaşı əlavə xərclərin qayğısını da çəkməyə məcbur oldu. Belə ki, son illərin dəyişməz mənzərəsi hamıya tanışdır. Bütün siniflərdə "valideyn qrupları" yaradılır. Əsas müzakirə mövzusu isə dərslər yox, süpürgə, silgi, kilid, zibil qabı, müəllim stolu üçün masa örtüsü, hətta bəzi məktəblərdə pərdə almaq üçün pul yığımı olur.

Bildiyimiz kimi, rəsmi olaraq ölkədə orta təhsil pulsuzdur. Bu məlumatları bəzən hər il məktəb açılarkən bildirirlər ki, şagirdlərdən heç bir halda ödəniş tələb edilməsin. Amma reallıq tam fərqlidir. Məktəbə ayaq basan hər bir valideyn qısa zamanda anlayır ki, övladının təhsili sənədlərdə pulsuzdur. Ancaq reallıqda "gizli xərclər" olur.

Bəzi kənd məktəblərində vəziyyət daha da gülünc hal alır. Sinif qapılarının köhnə olduğundan ya kilidi sınır, ya da müəllim açarı itirir. Sonra isə müəllim valideynlər qrupuna mesaj yazır: "Açar itib, yeni qıfıl alınmalıdır. Yığılan puldan qalsa alarsınız". Yəni dövlətin saxlamalı olduğu məktəb qapısının açarı belə valideynlərin cibindən asılı vəziyyətə düşür. Bu sadəcə kiçik bir nümunə olsa da böyük həqiqəti göstərir. Təhsil sistemi öz əsas vəzifəsini valideynlərin üzərinə yıxır. Ən çox çətinlik sosial baxımdan zəif ailələrin üzərinə düşür. Qrup çatında yazılan "Hər bir uşaq üçün 15-20 lari yığılır. Valideynlər, sabah uşaqlarınızdan pulu göndərin" təklifi bəziləri üçün kiçik məbləğ sayıla bilər, amma imkanı az olan valideyn, bir evdən məktəbə 2-3 uşaq gedən ailələr üçün bu böyük yükdür. Maraqlısı odur ki, bu ödənişlər "könüllü" kimi göstərilsə də, əslində, hamıya məcburi tətbiq olunur. İmkanı olmayan valideyn ya susur, ya da övladının müəllim və uşaqlar qarşısında utanmaması üçün borc alaraq pul verir. Nəticədə həm sosial bərabərsizlik dərinləşir, həm də uşaqlar arasında "kimin valideyni pulu verdi, kiminki vermədi" kimi xoşagəlməz söhbətlər yayılır.

Pul yığımı ilə bağlı başqa ciddi problem şəffaflığın olmamasıdır. Valideynlərdən toplanan məbləğin necə xərcləndiyi çox vaxt məlum olmur. Süpürgə adı ilə yığılan pul başqa məqsədlərə də istifadə oluna bilər. Halbuki məktəbin real ehtiyacı varsa bu, dövlət büdcəsi vasitəsilə qarşılanmalı və hər xərclənən pul şəffaf şəkildə açıqlanmalıdır.

Bütün bunlardan daha acısı isə cəmiyyət olaraq yanlış prioritetlər seçməyimizdir. Küçələrdə addımbaşı gözəllik salonu, masşın yuma yerləri açılır. Sanki ölkədə çatışmayan əsas şey bunlardır. Təhsil – gələcəyin qurulacağı ən vacib sahə isə diqqətdən kənarda qalır. Bir ölkənin inkişafı gözəl saç düzümləri, təmiz və parıldayan avtomobillərlə ölçülməməlidir. Əsl inkişaf güclü məktəblər, təminatlı siniflər və dəstəklənmiş müəllimlərlə mümkündür. Təəssüf ki, biz çox zaman gözəlliyə, dəbdəbəyə yatırım edirik. Amma təhsilin boşluqları böyüyür və bunu görsək də özümüzü görməmezliyə vururuq.

Valideyn qruplarında müzakirə olunan əsas mövzu dərslərin keyfiyyəti, uşaqların inkişafı və ya psixoloji dəstəyi olmalı ikən əksər hallarda "pulu kim verdi, kim vermədi" ətrafında söhbətlər gedir. Müəllim-valideyn münasibəti də maddi məsələlər üzərində qurulur. Bu isə həm müəllimin nüfuzuna zərbə vurur, həm də təhsilin mahiyyətini zəifədir. Məktəbin əsas vəzifəsi uşaqlara bilik verməkdir, yoxsa süpürgə və silgi üçün pul toplamaq? Çıxış yolu isə dövlətin məsuliyyəti artırılmalı, məktəblərin əsas xərcləri, təmizlik ləvazimatları, kiçik texniki avadanlıqlar büdcədən təmin edilməlidir. Bunların hamısı şəffaf olmalıdır ki, hər kəs öz borcunu düzgün yerinə yetirə bilsin.

Nəticə olaraq hər yeni dərs ilində valideynlərin ən çox müzakirə etdiyi mövzu kitabların məzmunu, dərslərin keyfiyyəti və müəllimlərin hazırlığı olmalıdır. Amma bu gün valideynlər süpürgə, kilid pulu, bir sözlə sinfin nəyə ehtiyacı var onunla məşğuldur. Əgər dövlət pulsuz təhsil vəd edirsə bu, yalnız kağız üzərində yox, real həyatda da hiss olunmalıdır. Təhsil bir ölkənin gələcəyidir. Bu gələcəyi valideynlərin cibinə yükləmək yox, dövlətin üzərinə məsuliyyət kimi qoymaq lazımdır. Əks halda məktəbdə sinif otaqlarında bilikdən çox boşluq, elmdən çox maddi mübahisələr böyüyəcək.



**Validə FƏTULLAYEVA**
Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR
2025-Cİ İL
№ 17 (234)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BU ÖLKƏLƏRDƏ DƏRSLƏR SENTYABRIN 15-DƏ BAŞLAYIR




Tədris ili Gürcüstanın bütün ümumtəhsil müəssisələrində 15 sentyabr tarixində başlayır. Bu tarix qanunvericiliklə müəyyən edilib və yalnız 15 sentyabr istirahət gününə təsadüf etdiyi halda dəyişdirilir. Həmin gün ölkə məktəblərində tədris prosesi ilk iş günü bərpa olunur.

Maraqlıdır, başqa ölkələrdə oxşar təcrübə varmı?

Gürcüstan kimi Azərbaycanda da tədris ili 15 sentyabrda başlayır. 15 sentyabr bütün ölkə üçün mühüm gündür və Bilik Günü adlanır.

Tarix Azərbaycan prezidenti İlham Əliyevin 2004-cü il 21 avqust sərəncamı ilə müəyyən edilib.

Ölkədə təhsil sistemi məktəbəqədər təhsili, ümumi (orta) təhsili, peşə (orta xüsusi və ali) təhsilini, aspirantura, magistratura və doktoranturanı əhatə edir.

Azərbaycanlı uşaqlar məktəbdə 6 yaşından təhsil almağa başlayırlar. Ümumi təhsildən başqa Respublika məktəblərində xarici dillər də geniş tədris olunur.

Sentyabrın 15-i tədris ilinin başlanmasını qeyd etmək üçün böyük şənlik və bayram tədbirləri təşkil olunur.

15 sentyabrda Bolqarıstanda da təhsil prosesi başlayır. Ölkədə uzun illərdir hüquqi və mədəni səviyyədə bu təcrübə qorunub saxlanılır.

Ölkədə tədris ilinin müddəti məsələsinə 1870-ci illərdə pedaqoji və yeparxiya toplantılarında qərar verilib. 1873-cü ildə “Kənd məktəblərinin nizamnaməsi” hazırlanıb. Nizamnaməyə əsasən, bu uşaqlar üçün təhsil ili 9 ay davam etməlidir. Həmin toplantıda qərar verilir ki, ibtidai təhsil vacibdir, tədris ili isə dini bayramdan sonra – 15 sentyabrda başlasın.

Dəyişiklik 1952-ci ildə baş verib və tədris ili çərçivəsi ilə əlaqədar olub – 1 sentyabrdan 30 maya qədər, buna Sovet İttifaqında olan təhsil sistemi də təsir göstərib. Bu model Bolqarıstanın təhsil sistemi üçün yararsız oldu. 1957-ci ildən bu günə qədər Bolqarıstanda tədris ilinin başlanğıcı 15 sentyabrdır.

15 sentyabrda adi qaydada Lüksemburqda da təhsil başlayır. Ancaq burada tədris ili 15 iyulda başa çatır.

Tədris ilinin başlaması vaxtı şagirdlərin dincəlmək üçün vaxtının olmasına uyğun seçilib.

Müvafiq olaraq, 15 sentyabr tədris ilinin adi başlanğıcıdır, amma sabit rəqəm yoxdur.

*Mənbə: edu.aris.ge*

## BAŞ NAZİR: YOXSULLUQ SƏVİYYƏSİ 9,4 FAİZƏ DÜŞÜB



“Gürcüstanda yoxsulluq ildən-ilə azalır. Biz 2012-ci ildə hökumətə gələndə yoxsulluq həddi 30 faiz idi. İndi isə bu rəqəm 9,4 faizə düşüb”. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, yoxsulluq məlumatları daim, ildən-ilə dərc olunur və Gürcüstanda ilk dəfə ötən il birrəqəmli yoxsulluq göstəricisi (9,4 faiz) qeydə alınıb.

“Yoxsulluqla bağlı göstərici 2012-ci ildə 1,1 milyon nəfər idisə, indi həmin rəqəm 350 minə enib. Bu isə o deməkdir ki, yoxsulluq hələ də ölkəmizin əsas problemlərindən biri olaraq qalır və bunun üçün investisiyalara, iqtisadi artıma, sürətli iqtisadi inkişafa ehtiyacımız var. Yoxsulluğun aradan qaldırılması bizim ən mühüm milli vəzifələrimizdən biridir”, – deyə İrakli Kobaxidze bildirib.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 8,8 FAİZ TƏŞKİL EDİB




Bu ilin yanvar-avqust aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi (bəyan edilməmiş ticarət istisna olmaqla) 16 milyard 252 milyon dollar təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,8 faiz çoxdur. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumata görə, hesabat dövründə ixrac 4 milyard 448 milyon dollar təşkil edib ki, bu 2024-cü ilin 8 ayı ilə müqayisədə 6,7 faiz çoxdur. İdxalın həcmi isə 9,8 faiz artaraq 11 milyard 804 milyon dollar olub.

Bildirilib ki, qeyd olunan dövrdə ölkənin mənfi ticarət saldosu 7 milyard 356 milyon dollar təşkil edib ki, bu da xarici ticarət dövriyyəsinin 45,3 faizini təşkil edir.

## GÜRCÜSTAN 7 ÖLKƏYƏ “TARİXİ BORCU”NU ÖDƏYİB



Gürcüstan 7 ölkəyə “tarixi borcu”n ödənilməsini başa çatdırıb. Bu barədə Gürcüstanın Maliyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, Gürcüstan bu ay xarici borcun qalıqlarını tam ödəyib. Azərbaycan, Rusiya, Türkiyə, Qazaxıstan, Ermənistan, İran və Niderlanda olan borclar ödənilib.

Bütün borclar Gürcüstanın müstəqillik qazandığı ilk illərdə yaranmış xarici öhdəliklərə aiddir.

Ödənişlər 1999-cu ilə qədər götürülmüş 160 milyon dollar məbləğində borcları, 1999-cu ildən 2004-cü ilin mayına qədər olan dövrdə yığılmış öhdəliklər üzrə faizləri, həmçinin əvvəlcədən təsdiqlənmiş qrafikə uyğun olaraq 2004-2006-cı illərdə ödənilməli olan borcları əhatə edib.

Ümumi ödəniş məbləği 225 milyon ABŞ dollarını keçib.

2025-ci il 31 avqust tarixinə Gürcüstanın ümumi xarici dövlət borcu 9,1 milyard ABŞ dolları təşkil edir.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.